


# DAŞKƏSƏN

*Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi*

Qəzet 1933-cü ildən çıxır | № 2 (5822) | Fevral-Mart 2019-cu il | Qiyməti 60 qəpik

# PREZİDENT İLHAM ƏLİYEV: "BİZ DƏRİN MİLLİ-MƏNƏVİ KÖKLƏR ÜZƏRİNDƏ GÜCLÜ DÖVLƏT QURMUŞUQ".



- *Fevralın 1-də Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında iştirak edib.*
- *Fevralın 7-də Prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub.*
- *Fevralın 13-də Prezident İlham Əliyev Beyləqan rayonuna səfərə gəlib.*
- *Fevralın 13-də Prezident İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun və bir sıra obyektlərin açılışlarında iştirak edib.*
- *Fevralın 18-də Prezident İlham Əliyev Sumqayıtda "SOCAR Polymer"in yüksək sıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.*
- *Fevralın 26-da Prezident İlham Əliyev Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşündə iştirak edib.*
- *Martın 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər.*
- *Martın 7-də Prezident İlham Əliyev Şamaxıda səfərdə olub.*
- *Martın 14-də Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun açılışında iştirak edib.*
- *Martın 19-da Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib.*
- *Martın 28-də Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.*
- *Martın 28-də Prezident İlham Əliyev Avstriya Respublikasına işgüzar səfərə gəlib.*
- *Martın 30-da Prezident İlham Əliyevin Avstriya Respublikasına işgüzar səfəri başa çatıb.*

*BİZ AZƏRBAYCANIN DÖVLƏT MARAQLARININ KEŞİYİNDƏ NƏYİN BAHASINA OLURSA-OLSUN DURMUŞUQ. BU YOLDA TƏZYİQLƏR DƏ, YALANLAR DA, BÖHTANLAR DA, İFTİRALAR DA OLUB. BUNLARIN HEÇ BİRİ BİZİ ÖZ YOLUMUZDAN DÖNDƏRƏ BİLMƏYİB. ONA GÖRƏ Kİ, BİZ DÜZGÜN YOLDAYIQ. ÇÜNKİ BİLİRİK Kİ, BİZİM SİYASƏTİMİZ XALQIN MARAQLARINA CAVAB VERİR. ƏLDƏ ETDİYİMİZ NƏTİCƏLƏR, NAİLİYYƏTLƏR, GÖZƏLLƏŞƏN ŞƏHƏRLƏR BÜTÜN BƏDXAHLARA, BİZƏ ZƏRBƏ VURMAQ İSTƏYƏNLƏRƏ, PAXILLIQ EDƏNLƏRƏ ƏN GÖZƏL CAVABDIR. AMMA BU PROSES DAİMİ OLMALIDIR, DAVAM ETMƏLİDİR. BUNA GÖRƏ SİZ GƏNCLƏR BUNA HAZIR OLMALISINIZ, HƏR ŞEYİ BİLMƏLİSİNİZ. SİZİN ÜÇÜN ƏN BAŞLICA VƏZİFƏ MÜSTƏQİLLİYİ, MİLLİ MARAQLARI QORUMAQ, AZƏRBAYCANI YAD TƏSİRLƏRDƏN QORUMAQ VƏ XALQIMIZIN RAHAT HƏYATINI TƏMİN ETMƏKDİR. MƏN ŞÜBHƏ ETMİRƏM Kİ, SİZ BUNA HAZIRSINIZ. AZƏRBAYCAN GƏNCLƏRİ FƏALDIR, VƏTƏNPƏRVƏRDİR, BİLİKLİDİR, SAVADLIDIRLAR. GƏNCLƏR, MƏN SİZƏ İNANIRAM, GÜVƏNİRƏM.*

*İLHAM ƏLİYEV*
*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ*
*BAKI ŞƏHƏRİ, 4 FEVRAL 2019-CU İL*

# DAŞKƏSƏNDƏ NOVRUZ BAYRAMI BÖYÜK TƏNTƏNƏ İLƏ QEYD OLUNUB



**Martın 19-da havanın qarlı-şaxtalı olmasına baxmayaraq, Daşkəsən şəhərinin Heydər Əliyev meydanında Novruz bayramı minlərlə rayon sakinlərinin iştirakı ilə yüksək səviyyədə keçirilib.**

Əvvəlcə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev bayram tonqalını yandırıb.

Milli geyimli qız rayon rəhbərinə gül dəstəsi və səməni təqdim edib. El ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verib.

Daha sonra Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev təbrik nitqi söyləyib. O, çıxışında deyib:

- Bu gün biz Daşkəsən şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin möhtəşəm abidəsinin önündə yerləşən bu meydanda Novruz bayramı münasibətilə təşkil edilən ümumxalq şənliyinə toplaşmışıq.







Sizi xalqımızın ən sevimli və ən müqəddəs bayramı olan Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində hər birinizə bahar əhval-ruhiyyəsi, möhkəm cansağlığı və səadət arzulayıram.







Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Bu əziz bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi, mədəni keçmişinə yüksək ehtiramını və dərin bağlılığını nümayiş etdirir.

Azərbaycan xalqının milli-mənəvi dəyərlərində xüsusi yeri ilə seçilən Novruz bayramı digər mənəvi sərvətlərimiz kimi zaman-zaman qadağalarla üzləşmiş, 70 illik sovet əsarəti dövründə imperiyanın repressiya dalğası Novruz bayramından da yan keçməmiş, onun qeyd olunması yasaqlanmışdır. Lakin öz keçmişinə sadiq olan xalqımız Novruz mərasimlərini yaşatmış, onu yad təsirlərdən qorumaqla milli kimlik və xalq kimi mövcudluğumuzun davamlılığını təmin edə bilmişdir.

Dövlət müstəqilliyimizin bərpası, xüsusilə də ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra mənəvi dəyərlərimizə münasibətdə dönüş yarandı. Ümummilli liderin adət-ənənələrimizə, milli-mənəvi dəyərlərimizə olan həssas qayğıkeşliyi Novruz bayramının da xalqın ruhuna uyğun geniş təmtəraqla keçirilməsinə səbəb oldu.

Ulu Öndərin siyasətini layiqincə davam etdirən dövlət başçımız cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə milli birlik və həmrəyliyimizi əks etdirən Novruz bayramının yüksək səviyyədə qeyd olunması xalqın mədəni keçmişinə ehtiramın göstəricisidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramı UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, BMT-nin Baş Assambleyası tərəfindən 21 mart tarixi "Beynəlxalq Novruz Günü" elan olunmuş, beləliklə, bu bayram regional müstəvidən çıxaraq beynəlxalq səviyyəli tədbirə çevrilmişdir. Bütün bunlar Azərbaycan xalqının həmrəyliyi və milli birliyinin güclənməsinə dövlət səviyyəsində verilən dəstəyin əyani sübutudur.

Respublikamızın hər yerində olduğu kimi, Daşkəsənimizdə də yüksək mənəviyyat xəzinəsi sayılan Novruz bayramı hər il ümumxalq şənliyi kimi qeyd olunur. Hər il Daşkəsən rayonunda Novruz bayramının quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunması ümummilli liderimiz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir.

Bu gün bu bayram tonqalının ətrafında toplaşmış bayram əhval-ruhiyyəli insanların əhatəsində birmənalı olaraq qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müasir zamanın tələblərinə uyğun şəkildə davam etdirilən daxili və xarici siyasət kursu ölkəmizin əldə etdiyi bütün uğurların əsasında dayanır. Qısa zaman kəsiyində ölkəmizin əldə etdiyi böyük nailiyyətlər möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli və mükəmməl iqtisadi strategiyanın nəticəsidir. Azərbaycan özünün dinamik inkişafı, etibarlı tərəfdaşlığı və günü-gündən artan gücü ilə dünya siyasətində söz sahibinə çevrilmişdir. Dünyanın inkişaf etmiş qabaqcıl ölkələri, hərbi gücləri Azərbaycanla bərabər səviyyədə danışıqlar aparır, Azərbaycanın mövqeyinə hörmətlə yanaşırlar. Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Hörmətli Prezidentimiz cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Azərbaycanın təbii sərvətlərlə zəngin sənaye rayonu olan Daşkəsən son illərdə özünün ən sürətli inkişaf dövrünə qədəm qoymuşdur. Bu illər ərzində Daşkəsənin sosial, iqtisadi, mədəni siması tamamilə dəyişmişdir. 2013-cü ildə işlənib hazırlanmış rayonun hərtərəfli sosial-iqtisadi inkişafını şərtləndirən proqram xarakterli "Yeni Daşkəsən" layihəsi əsasında rayonumuzda kənd təsərrüfatının ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati, sosial binaların tikintisi, yaşayış məntəqələrində su, qaz, elektrik təchizatı, yeni yolların və körpülərin salınması məsələsi, özəl investisiyalar vasitəsilə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara və fermerlərə münbit şəraitin yaradılması, xüsusilə də Daşkəsən rayonun zəngin təbii sərvətlərindən səmərəli istifadə məqsədilə "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin yenidən işə salınması əsas vəzifə kimi qarşıya qoyulub yüksək səviyyədə həyata keçirilir, Daşkəsən rayonunun hələ sovetlər dövründən yığılıb qalmış problemli məsələləri tam öz həllini tapır. Rayonumuzda görülən bütün işlərə görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdar olmalıyıq.

Bu xoş əhval-ruhiyyəli bayram günlərində möhtərəm Prezidentimiz cənab İlham Əliyevə bütün Daşkəsən sakinləri adından yüksək ehtiramımızı, ona dərin sədaqət və inamımızı, diqqət və qayğısına görə dərin minnətdarlığımızı bildiririk.

Eşq olsun möhtərəm Prezidentimiz cənab İlham Əliyevə!

Bu gün Azərbaycanın ən ağrılı problemi Dağlıq Qarabağdır, hələ də işğal altında qalan torpaqlarımızdır. Lakin biz belə möhtəşəm bayram tonqallarının işğal altında qalan dədə-baba torpaqlarımızda da alovlandırılacağına qətiyyətlə inanırıq, bu günün heç də uzaqda olmadığını bilirik.

Sizləri bir daha da bu gözəl Bahar bayramı münasibətilə təbrik edir, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında günbəgün inkişaf edən ölkəmizdə hər birinizə firavan həyat, uğurlar arzulayıram.

Novruz bayramınız mübarək olsun!








Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev təbrik nitqindən sonra ümumrayon tədbirində nümayiş etdirilən el sənəti və milli mətbəximizin nümunələrinə baxış keçirib.

Ümumrayon şənliyi el aşıqlarının, musiqiçilərin ifaları, idmançıların müxtəlif idman nömrələri və rəngarəng əyləncəli proqramlar ilə yadda qalıb.

# NOVRUZ ŞƏNLİYİ RAYON ƏRAZİSİNDƏ YERLƏŞƏN YENİ TİKİLMİŞ ƏN MÜASİR TİPLİ "N" SAYLI HƏRBİ HİSSƏDƏ ƏSGƏR VƏ ZABİTLƏRLƏ BİRGƏ DAVAM ETDİRİLİB

**Tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev və rayon ictimaiyyəti iştirak ediblər.**

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev təbrik nitqi ilə çıxış edərək hərbi hissənin zabit, gizir və əsgərlərini Novruz bayramı münasibətilə təbrik edib.

O, çıxışında deyib:

- Bu gün inamla deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, məişət problemlərinin həllinə, maaşlarının artırılmasına, hərbi infrastrukturun yaradılmasına ciddi əhəmiyyət verir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin fəaliyyətində ordu quruculuğu ən əsas məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordusu ilə fəxr edir.

Dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan Ordumuz son illərdə daha da möhkəmlənmiş, qüdrətlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan Ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir.



Keçirilən irimiqyaslı təlimlər, paradlar göstərir ki, Azərbaycan Ordusu quruda, dənizdə və havada, istənilən iqlim şəraitində qarşısına qoyulmuş hər hansı bir vəzifəni uğurla yerinə yetirməyə hər an hazırdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıbdır ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaradılması dövlət və hökumət, eyni zamanda, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir.

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət göstərən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Artıq heç kəsə sirr deyil ki, bu gün Azərbaycan öz iqtisadiyyatı, büdcəsi, hərbi gücü və bir sıra digər parametrlərinə görə hər cəhətdən tənəzzülə uğrayan düşməndən qat-qat üstündür. Bütün bunlar Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin məntiqi nəticəsidir.

2016-cı ilin aprelin 2-nə keçən gecə bütün cəbhəboyu mövqelərimizin və təmas xəttinə yaxın bir sıra yaşayış məntəqələrimizin intensiv atəşə tutulmasına Azərbaycan Ordusu biganə qalmadı. Erməni işğalçıları öz layiqli cavablarını aldılar. Ötən il isə Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra işğaldan azad edildi.



Səbri tükənən xalqımız, eləcə də öz doğma yurdlarından didərgin salınan insanlarımız Azərbaycan Ordusunun bu qətiyyətli hərəkətindən, aprel döyüşlərindən, Günnüt əməliyyatından sonra sabaha daha da inamla baxırlar.

Daşkəsən Rayon İcra Hakimiyyəti olaraq rayon ictimaiyyəti ilə birgə sizlərin Novruz bayramı görüşünə təbrikə gəlmişik. Xalqımızın ən sevimli bayramı olan bu Bahar bayramını sizlərlə keçirmək, bayram sevincinizə qoşulmaq bütün daşkəsənlilərin istəyidir.

Daşkəsən rayonu mənfur Ermənistanla 8 kilometr, işğal altında qalan Kəlbəcər rayonu ilə 23 kilometr həmsərhəddir. Təmas xətti olan cəbhə bölgəsində hərbi xidmət keçməyin məsuliyyəti daha böyükdür. Respublikamızda, eləcə də rayonumuzda ordunun arxasında xalq, xalqın arxasında isə ordu dayanır. Bu birliyin nəticəsidir ki, qəhrəman daşkəsənlilər düşmənə bir qarış da torpaq verməmişlər.

Xalqımız onu da yaxşı bilir ki, döyüş ruhlu Azərbaycan əsgəri ölkəmizi Şuşasız, Laçınsız, Kəlbəcərsiz, işğal olunmuş digər şəhər və kəndlərsiz təsəvvür etmir. Silahlı Qüvvələrin bütün şəxsi heyəti qisas və qələbə hissi ilə yaşayır, torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə hazırdır və qadirdir. Azərbaycan əsgəri Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa edəcəkdir. Buna heç kimin şübhəsi yoxdur.

Eşq olsun möhtərəm Prezidentimiz cənab İlham Əliyevə!

Ali Baş Komandanımızın Novruz bayramı mübarək olsun!

Sizləri bir daha da elimizin ən əziz bayramı olan Novruz bayramı münasibətilə təbrik edirəm, sizlərə Azərbaycanın ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızın azad olunması yolunda böyük-böyük qələbələr arzulayıram.

Azərbaycan Ordusuna eşq olsun!

Tədbirdə digər çıxış edənlər də Novruz bayramı münasibətilə əsgərlərə cansağlığı arzulayıb, onlara Vətənə sədaqətlə xidmət etməyi tövsiyə ediblər.

Rayon ictimaiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə gətirilən bayram sovqatı və xonçalar əsgərlərə paylanıb.

Tədbir bayram konserti ilə davam edib. Daşkəsənin incəsənət nümayəndələri rəngarəng bayram proqramlarını nümayiş etdiriblər. Görüşə gələnlər rəqs edib, əsgərlərin bayram sevincinə qoşulublar.

# DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV AYRI-AYRI GÜNLƏRDƏ RAYONUN KƏNDLƏRİNDƏ, YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ, ƏRAZİLƏRDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULLARINI KEÇİRİB

**FEVRALIN 7-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV ÇANAQÇI KƏNDİNDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULUNU KEÇİRİB.**

Qəbulda hüquq-mühafizə orqanların, idarə, müəssisə və təşkilatların rəhbərləri, kənd sakinləri iştirak ediblər.

Çanaqçı kənd sakinlərini salamlayan Əhəd Abıyev Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan geniş abadlıq və quruculuq işləri, ölkədə gedən ictimai-siyasi vəziyyət barədə ətraflı məlumat verib.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində icra ediləcək layihələri çərçivəsində Çanaqçı kəndində də modul tipli tam orta məktəbin tikintisinin nəzərdə tutulduğunu sakinlərin diqqətinə çatdırıb.

O, çıxışında Qaraqullar-Çanaqçı, Çanaqçı-Zivlan avtomobil yolunun təmirinin, ərazidə mühüm sosial və mədəni obyektlərin inşasının əhali tərəfindən böyük razılığına səbəb olduğunu xüsusilə qeyd edib.

Sonra Rayon İcra Hakimiyyətinin Başçısı sakinlərin müraciətlərini dinləyib.

Müraciətlər işlə təmin olunma, təbii qaz xəttinin çəkilməsi, vətəndaşın həyətində olan əyilmiş elektrik dayağının dəyişdirilməsi, kənd tibb məntəqəsinin təmir olunması, eləcə də digər şəxsi məsələlər barədə olub.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlarını verib.



Müraciətlərin əksəriyyəti yerində həll edilib.

Kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən bu kimi tədbirlərə, göstərilən daimi diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**FEVRALIN 25-DƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULU ZƏYLİK KƏNDİNDƏ KEÇİRİLİB.**

Səyyar görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev qəbulda ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, eləcə də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Daşkəsən rayonunda irimiqyaslı sosial infrastruktur layihələrin həyata keçirilməsindən, əhalinin məşğulluğun təmin olunması məqsədi ilə yaradılmış yeni iş yerlərindən, abadlıq-quruculuq, yenidənqurma işlərindən geniş söz açıb.

Çıxış edən kənd sakinləri də görülən işləri müsbət qiymətləndirib, həmçinin onları narahat edən mövcud problemlərə toxunublar.

Kənddə tibb məntəqəsinin və kənd mədəniyyət evinin, həmçinin Quşçu-Zəylik avtomobil yolunun təmiri və digər şəxsi problemlər sakinlər tərəfindən səsləndirilib.

Qaldırılan müraciətlərin həlli ilə bağlı aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə tapşırıqlar verilib, əksər müraciətlər yerində öz müsbət həllini tapıb.

Sakinlər görülən işlərə, yaradılan şəraitə, onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**MARTIN 28-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ, SƏHİYYƏ, TƏHSİL, MƏDƏNİYYƏT, XİDMƏT TƏŞKİLATLARININ RƏHBƏRLƏRİ VƏ SAKİNLƏRİNİN İŞTİRAKI İLƏ YUXARI DAŞKƏSƏN QƏSƏBƏSİNDƏ NÖVBƏTİ SƏYYAR QƏBULUNU KEÇİRİB.**

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışında respublikamızın və rayonumuzun bugünkü uğurlu inkişafından danışıb: "Ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün respublikanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş tikinti-abadlıq, quruculuq işləri aparılır - yeni yollar çəkilir, körpülər salınır, təhsil, müəssisələri inşa olunur, sosial layihələr həyata keçirilir".




Əhəd Abıyev çıxışında Yuxarı Daşkəsən qəsəbə sakinləri ilə dəfələrlə görüşdüyünü və həmin görüşlərdə qaldırılan məsələlərin həlli istiqamətində mühüm işlərin görüldüyünü bildirib. Qeyd edib ki, qəsəbə əhalisi bu gün fasiləsiz olaraq elektrik enerjisi, qaz, rabitə, içməli su ilə təmin olunur, 200 yerlik tam orta məktəb yenidən tikilib, ərazidə xeyli abadlıq işləri aparılıb.

Rayon rəhbəri həmçinin Yaponiya Hökumətinin dəstəyi ilə "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində "Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində su təchizatı sisteminin tikintisi" layihəsinin uğurla icra edildiyini, 26 iyul 2017-ci il tarixdə təntənəli açılış mərasiminin keçirilməsini və tikilmiş su təchizatına Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Teruyuki Katorinin iştirakı ilə baxış keçirdiyini diqqətə çatdırıb.

Əhəd Abıyev qarşıda duran vəzifələr barədə də danışıb.

Sonra sakinlərin müraciətləri dinlənilib. Müraciətlər qəsəbə daxili yolların asfaltlaşdırılması, köhnə elektrik dayaqlarının dəyişdirilməsi, işlə təmin olunma, uşaq bağçasının əsaslı təmir olunması və digər məsələlər ilə bağlı olub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə əlaqədar aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib.

Qəsəbə sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək möhtərəm Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***

**MARTIN 30-DA DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULUNU AŞAĞI DAŞKƏSƏN KƏNDİNDƏ KEÇİRİB.**

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev vətəndaşlarla keçirilən hər bir görüşdə qaldırılan problemlərin və verilən təkliflərin yerinə yetirilməsi üçün aidiyyəti qurumlar tərəfindən konkret və əməli tədbirlərin görüldüyünü bildirib, o cümlədə rayonumuzda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verib.

Rayon rəhbəri xüsusilə vurğulayıb ki, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hər zaman çox güclü sosial siyasət aparılır. O, cari ilin əvvəlində çox ciddi və böyük sosial paketin təsdiqləndiyini və həmin proqramın 3 milyondan çox insanı əhatə etdiyini diqqətə çatdırıb.

Əhəd Abıyev çıxışında Aşağı Daşkəsən kəndində də xeyli abadlıq işlərinin aparıldığını, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində mühüm addımların atıldığını qeyd edib.

Daha sonra vətəndaşların müraciət və təklifləri dinlənilib.

Kənd sakinlərindən müraciət edənlər işlə təmin olunmağa, kənddaxili yolun və uşaq bağçasının əsaslı təmirinə, kəndin qazlaşdırılmasına, əlavə su xəttinin çəkilməsinə digər problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev sakinlər tərəfindən qaldırılan müraciət və təkliflərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə öz tapşırıqlarını verib. Əksər müraciətlər yerində müsbət həllini tapıb.

Kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən bu kimi tədbirlərə, göstərilən daimi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# DAŞKƏSƏNDƏ XOCALI SOYQIRIMININ 27-Cİ İLDÖNÜMÜ DƏRİN HÜZNLƏ QEYD EDİLİB



**Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin müvafiq sərəncamına əsasən Xocalı faciənin 27-ci ildönümünün rayonda geniş şəkildə qeyd olunmasını nəzərdə tutan tədbirlər planı hazırlanmış, fevralın 12-dən 26-dək silsilə tədbirlərlə həyata keçirilmişdir.**

Fevralın 26-da isə Daşkəsən rayon ictimaiyyətinin 4 mindən çox nümayəndəsinin iştirakı ilə rayonun Şəhidlər xiyabanında anım mərasimi keçirilib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev rayon Şəhidlər xiyabanındakı əbədi məşəlin önünə gül dəstəsi qoyub.

Rayon rəhbərliyi, hərbçilər, ictimaiyyət nümayəndələri və sakinlər şəhid məzarlarını ziyarət edib, əbədi məşəlin önünə tər güllər və çiçəklər düzüblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev ümumrayon anım mərasimində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, rayon ağsaqqalları və veteranları ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Əhəd Abıyev ümumrayon anım mərasimində çıxış edib. O, çıxışında deyib:

- İyirmi yeddi il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər. Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırım hadisəsi və beynəlxalq cinayət kimi təsdiq olunmuşdur. Bu soyqırım zamanı Azərbaycan xalqı minlərlə şəhid qurban vermişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımının onilliyi münasibətilə Azərbaycan xalqına müraciətində belə demişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq, etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb. Bunun nəticəsində də soydaşlarımız öz tarixi dədə-baba torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmişdir.

Erməni təcavüzkarlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyanı 1988-ci ildən yenidən reallaşdırmaq cəhdləri, Dağlıq Qarabağ ətrafında başlayan qanlı hadisələr kənd və şəhərlərimizin dağılması, on minlərə günahsız soydaşlarımızın ölümü, bir milyondan artıq azərbaycanlının didərgin düşməsi ilə nəticələndi. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını bu gün də nümayiş etdirirlər. XX əsrin dəhşətli faciəsi olan Xocalı soyqırımı da bu aqressiv və cinayətkar erməni siyasətinin tərkib hissəsidir.

Mən çıxışımda faciənin tarixinə bir daha nəzər salacağam. Belə ki, 25 il bundan qabaq fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirərkən burada yalnız 3 minə yaxın insan var idi. Çünki mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. Bir neçə saat ərzində 613 nəfər soydaşımız, o cümlədən 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmişdir. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülmüş, onların 150-nin taleyi indi də naməlumdur.



Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin 20 faiz ərazisi işğal edildi, bir milyondan çox soydaşımız didərgin düşdü, xalqımız misli görünməyən humanitar fəlakətlərlə üzləşdi.

Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dövlətimiz, eləcə də xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporları tərəfindən dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılır, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almaqdadır.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı çox hörmətli cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir və Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq iş aparılır. Artıq Amerikada və dünyada Xocalı soyqırımını tanıyan və pisləyən ştatların və dövlətlərin sayı ildən-ilə artır.



Bu gün Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması hər bir azərbaycanlının borcudur. Xocalı faciəsi Azərbaycan xalqının heç vaxt unudulmayacaq və ibrət dərsi götürüləcək qan yaddaşıdır. Xocalı soyqırımının tanınması ilə bağlı əldə olunan təqdirəlayiq nəticələr onu deməyə əsas verir ki, bu faciəni törədənlər gec-tez ədalət mühakiməsi qarşısına çıxacaq, öz dəhşətli cinayətlərinə görə cavab verməli olacaqlar.

Bildiyiniz kimi, rayonumuz cənub-qərbdən 8 kilometr Ermənistan, 23 kilometr işğal altında olan Kəlbəcər rayonu ilə həmsərhəddir. Bu, biz daşkəsənlilərin mübarizə ruhunu daha da alovlandırır. Əminik ki, gec-tez işğal altında olan tarixi torpaqlarımız möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunacaqdır.

Milyonlarla həmvətənlərimiz kimi biz daşkəsənlilər də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini ulu öndər Heydər Əliyev siyasətinin müdrikliyində və həmin siyasi kursu layiqincə davam etdirən ölkə başçısı çox hörmətli cənab İlham Əliyevin məqsədyönlü fəaliyyətində görürük.

Əgər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev əmr verərsə ki, müharibə yolu ilə torpaqlarımızı azad edək, o zaman bütün Cənubi Qafqazın ən güclü ordusu olan Azərbaycan ordusu, şübhəsiz ki, bu tapşırığı layiqincə icra edəcəkdir.

Xalqımız, o cümlədən də biz daşkəsənlilər Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, işğal olunmuş torpaqlarımızın azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpası ümidi ilə yaşayır və bu günün uzaqda olmadığına inanırıq.

Biz əminik ki, Xocalı soyqırımının günahkarları öz layiqli cəzalarını alacaqlar. Çünki bu dəhşətli cinayət cəzasız qala bilməz.

Allah Xocalı şəhidlərinə və bütün şəhidlərimizə rəhmət eləsin, əziz ruhları şad olsun!

**Elmar ƏLİYEV**
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

# DAŞKƏSƏNLİ ŞƏHİD DƏFN EDİLDİ

**Martın 11-də İran-Azərbaycan sərhədindən sərhədini pozmaq istəyən silahlı qrupla atışmada həlak olan kiçik çavuş Səxavət Məmmədov dəfn edilib.**

Martın 10-da 2019-cu il tarixdə saat 06:50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədini pozmağa çalışan silahlı terrorçuların qarşısını alan zaman 2017-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmış, Daşkəsən rayonunun Təzəkənd kəndində 24 oktyabr 1999-cu ildə anadan olmuş kiçik çavuş Məmmədov Səxavət Füzuli oğlu şəhid olmuşdur.

Şəhid Səxavət Məmmədov yaşadığı Göygöl rayonu, Yeni Qızılca kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, rayon Prokuroru və Polis rəisi, Göygöl rayonundan rəhbər şəxslər, sərhədçilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik.

**DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI**

2019-cu ilin 10 mart tarixində saat 06:50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd edilmişdir.

Sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunmuş və qarşısı alınmışdır.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları tərəfindən sərhəd naryadına qarşı silah tətbiq edilmişdir.







Baş vermiş atışma zamanı sərhəd naryadının başçısı Daşkəsən rayonundan həqiqi hərbi xidmətə çağırılmış kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu sinəsindən güllə yaraları almış, sərhəd naryadının üzvü Siyəzən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu əlindən yaralanmışdır. Hər iki sərhədçi dərhal hərbi hospitala təxliyə olunsa da, kiçik çavuş Səxavət Məmmədovun həyatını xilas etmək mümkün olmamışdır.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti dövlət sərhədini mühafizə edərkən qəhrəmancasına həlak olmuş kiçik çavuş Səxavət Məmmədovun atası ilə görüşmüş və baş sağlığı vermişlər.

Dövlət Sərhəd Xidmətinin rəisinin əmri ilə kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu (ölümündən sonra) və əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu xidməti vəzifələrinin icrasında göstərdikləri şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunmuşlar.

Hadisə ilə əlaqədar Hərbi Prokurorluqla birlikdə zəruri tədbirlər həyata keçirilir. Fakt üzrə cinayət işi başlanılmışdır.

**Vüqar MƏMMƏDOV**
RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun müdiri

# DAŞKƏSƏN RAYONUNDA 2018-Cİ İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARI VƏ 2019-CU İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ DAİR HESABAT YIĞINCAĞI KEÇİRİLİB

**Fevralın 27-də Daşkəsən rayonunda 2018-ci ilin sosial-iqtisadi inkişafın yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilib.**

Yığıncaqda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov, Daşkəsən rayonundan Milli Məclisə millət vəkili seçilmiş Kamran Bayramov, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Yığıncaq iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla anıblar.







Sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin inzibati binasında yığıncaq öz işinə başlayıb.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev yığıncağı giriş sözü ilə açaraq hesabat məruzəsi ilə çıxış edib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin nitqindən sonra məruzə ətrafında Daşkəsən rayonu üzrə Maliyyə idarəsinin rəisi Natiq Zeynalov, Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının Daşkəsən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nüsrət Vəliyev və Daşkəsən rayon Gənclər və İdman idarəsinin rəisi Samir Həsənov çıxış ediblər, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər, qarşıda duran vəzifələrin icrasından danışıblar.

Məruzə ətrafında çıxışlardan sonra açıq mikrofon qarşısında yerdən səsləndirilən müraciət və təkliflər dinlənilib, qaldırılmış məsələlər barədə tədbirlər görülməsi üçün tapşırıqlar verilib.

Yığıncaqda həmçinin millət vəkili Kamran Bayramov və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov çıxış ediblər.

Hesabat yığıncağının sonunda qərar layihəsi qəbul olunub, toplantı iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanıb.

**Bəhman Verdiyev**
RİHBA-nın Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin aparıcı məsləhətçisi

# DAŞKƏSƏNDƏ SƏFƏRBƏRLİK VƏ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN YARADILMASININ 7-Cİ İLDÖNÜMÜ QEYD OLUNUB

**Fevralın 13-də Daşkəsən Rayon İcra Hakimiyyəti Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsi ilə birgə Dövlət Xidmətinin yaradılmasının 7-ci ildönümü münasibətilə tədbir keçirib.**

Tədbirdə rayon rəhbərliyi, idarə, müəssisə və təşkilatların əməkdaşları, Qarabağ müharibəsi veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları rayon mərkəzində ucaldılmış xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.



Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin yad edilməsi ilə başlanan bayram tədbirini giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxışında deyib:

- Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant hörmətli Arzu Rəhimov başda olmaqla, Xidmətin bütün şəxsi heyətini, o cümlədən də Daşkəsən rayon bölməsinin rəisi mayor Aqşin Xancanovun simasında bölmənin əməkdaşlarını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 7-ci ildönümü münasibəti ilə Daşkəsən rayon ictimaiyyəti və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm, bu məsuliyyətli və şərəfli işinizdə sizlərə yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıram.

Məlum olduğu kimi, möhtərəm Prezident cənab İlham Əliyevin 13 fevral 2012-ci il tarixli Fərmanına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb. Bu gün Dövlət Xidmətinin yaradılmasından yeddi il ötür.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılması, səlahiyyətlərinin genişləndirilməsi vaxtında atılmış mühüm və uğurlu addımlardan biridir. Ötən qısa müddətdə Dövlət Xidməti Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində uğurlu inkişaf yolu keçib, ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini verib. Azərbaycanda səfərbərlik hazırlığı və işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, xidmətə hazırlanması, müddətli həqiqi hərbi xidmətə çağırılmasının təşkili, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, habelə korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra mühüm tədbirlər görülüb.

Silahlı Qüvvələrimizin tərkibində özünəməxsus yer tutan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ehtiyatda olan bütün insanları sevindirir. Çünki biz də hər zaman özümüzü Silahlı Qüvvələrin və Səfərbərlik Xidmətinin tərkibində görürük, hər zaman səfərbər olmağa hazırıq.

Bunu biz daşkəsənlilər əməlimizlə də təsdiq etmişik. Qeyd edim ki, ötən dövrlərdə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin səfərbərlik təlimlərinin keçirilməsi haqqında verdiyi tapşırıqlar Daşkəsən rayonu tərəfindən uğurla icra edilmişdir. Hərbi vəzifəlilərin və texnikaların qısa müddət ərzində təyin olunmuş hərbi hissələrə çatdırılması yüksək səviyyədə həyata keçirilmişdir.

Xidmət tərəfindən yeniyetmə və gənclərdə vətənpərvərlik hissinin yüksəldilməsi istiqamətində rayonumuzda görülən işlər də yüksək qiymətləndirilməlidir. Bu məqsədlə mütəmadi olaraq mədəni-kütləvi tədbirlər təşkil olunur. Xüsusən çağırış yaşlı gənclərin rayon ictimaiyyətinin iştirakı ilə təntənəli surətdə hərbi xidmətə yola salınması və qarşılanması mərasimləri əsl bayram ovqatında keçirilir.

İnanırıq ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəxsi heyəti dövlətin, xalqın və Ali Baş Komandanın etimadını doğrultmaq, üzərilərin düşən məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirmək üçün bundan sonra da böyük səy və fədakarlıqla çalışacaqlar. Bu yolda onlara uzun ömür, cansağlığı, yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

Çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin rəisi mayor Aqşin Xancanov bildirmişdir ki, Xidmətin fəaliyyət göstərdiyi ötən 7 il ərzində ölkədə səfərbərlik işi yüksək səviyyədə təşkil edilmiş, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, çağırışçıların müddətli həqiqi hərbi xidmətə cəlb edilməsi və ordu quruculuğu sahəsində qarşıya qoyulmuş vəzifələr müvəffəqiyyətlə həyata keçirilmiş, şəffaflıq prinsiplərinə əsaslanaraq dövlət orqanı kimi özünü doğrultmuşdur.

Digər çıxış edənlər də Xidmətin əməkdaşlarına öz təbriklərini çatdırıb, şərəfli işlərində onlara yeni-yeni uğurlar arzulayıblar.

Tədbirin sonunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin əməkdaşlarına, həmçinin bölmənin işində xüsusi fəallıq göstərmiş Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq şöbəsinin məsləhətçisi Ruslan Məmmədəliyevə, o cümlədə gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbərlərə fəxri fərman və mükafatlar təqdim edilib.

**Elmar ƏLİYEV**
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

# MİLLƏT VƏKİLİ KAMRAN BAYRAMOV DAŞKƏSƏN RAYONUNDAN OLAN SEÇİCİLƏRİ İLƏ GÖRÜŞÜB



**Fevralın 14-də 100 saylı Şəmkir-Daşkəsən Seçki Dairəsindən deputat seçilmiş Kamran Bayramov Aşağı Daşkəsən kəndində, martın 12-də isə Çovdar kəndində seçiciləri ilə növbəti görüşlərini keçirib.**

Görüşlərdə YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev, Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, kənd inzibati ərazi dairəsi üzrə nümayəndələr, kənd bələdiyyə sədrləri də iştirak ediblər.

Millət vəkili Kamran Bayramov ölkədə və dünyada gedən proseslərdən, ölkə rəhbəri tərəfindən aparılan uğurlu daxili və xarici siyasətdən geniş söhbət açıb. O, çıxışlarında həmçinin möhtərəm Prezident cənab İlham Əliyevin xarici və ölkədaxili səfərlərindən, imzalanan sərəncam və fərmanların əhəmiyyətindən, istifadəyə verilən obyektlərin açılışlarından danışıb.

Səmimi atmosferdə keçirilən görüşlərdə seçicilər içməli su problemi, məşğulluq, hüquqi yardım, sosialyönümlü məsələlərlə bağlı millət vəkili Kamran Bayramova müraciət ediblər.

Müraciətlər aidiyyəti qurumlara göndərilməsi üçün qeydiyyata götürülüb.

# DAŞKƏSƏNLİ MƏKTƏBLİLƏR NÖVBƏTİ "ÖLKƏMİZİ TANIYAQ" MAARİFLƏNDİRİCİ TUR-AKSİYASINA QOŞULUBLAR



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilib.**




"Ölkəmizi tanıyaq" maarifləndirici tur layihəsi çərçivəsində növbəti ekskursiyaya daşkəsənli məktəblilər 23 mart tarixində qoşulublar.

Daşkəsən Rayon İcra Hakimiyyəti əməkdaşlarının, təhsil şöbəsi işçilərinin, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə rayonun Heydər Əliyev meydanında təntənəli yolasalma mərasimi keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, bu aksiyalar gənclərimizə respublikamızın tarixini dərindən öyrənmək imkanı yaradır.

Xüsusilə vurğulanıb ki, məktəblilərimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə milli dövlət quruculuğu sahəsində görülmüş işlərlə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi dinamik sosial-iqtisadi inkişafla hər bir şəhər və rayonun nümunəsində əyani tanış olurlar.

Yolasalma mərasimində çıxış edən valideynlər məktəblilərə uğurlar arzulayaraq, ölkəmizi daha yaxından tanımaq üçün onların övladlarına yaradılan şəraitə və şagirdlərin dünya görüşünün yüksəlməsində, onların azərbaycançılıq ruhunda böyüməsi üçün mühüm əhəmiyyət kəsb edən belə tur-aksiyaların təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidə kompleksi qarşısına tər gül-çiçək dəstələri düzən 20 məktəblidən ibarət qrup Qəbələ rayonuna yola düşüb.

**DAŞKƏSƏN MƏKTƏBLİLƏRİ QƏBƏLƏ-ŞƏKİ-ZAQATALA SƏFƏRİNDƏN ZƏNGİN TƏƏSSÜRATLARLA AYRILIBLAR**

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Daşkəsən məktəbliləri martın 26-da geri dönüblər.

Məktəblilər xüsusi ayrılmış avtobusla Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidə kompleksi qarşısına gəliblər. İştirakçıları Rayon İcra Hakimiyyətinin, təhsil şöbəsinin, rayon ictimaiyyətinin nümayəndələri və valideynlər qarşılayıblar.

İştirakçılarla görüşənlər 4 günlük səyahətdən sonra şagirdlərin səfər təəssüratlarını öyrəniblər. Məktəblilər ölkəmizin bu bölgəsindəki abidələri, muzeyləri ziyarət edərkən ölkəmizin tarixi, mədəniyyəti barədə çox şey öyrəndiklərini bildiriblər. "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının cənab İlham Əliyevin gənc nəslə olan daimi diqqət və qayğısından irəli gəldiyini vurğulayıblar.

Məktəblilər və onların valideynləri bu layihənin həyata keçirilməsinə görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər.

**İlahə XIDIROVA**
RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun aparıcı məsləhətçisi




# DAŞKƏSƏNDƏ 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ QEYD EDİLİB

**Martın 28-də 31 mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Daşkəsən Rayon İcra Hakimiyyətinin iclas zalında dəyirmi masa təşkil olunub. Keçirilən anım tədbiri rayon ictimaiyyəti nümayəndələrinin fəallığı şəraitində qeyd edilib.**




Əvvəlcə soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbiri Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev açaraq deyib: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 1998-ci ildən 31 mart Azərbaycan Respublikasında dövlət səviyyəsində Azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. 1918-ci ilin mart ayından etibarən guya əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.

Ermənilərin Bakıdan başlayan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin qəsbkar torpaq iddialarını pərdələmişlər. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir".

Əhəd Abıyev nitqində xüsusilə qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hücum diplomatiyası, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın beynəlxalq aləmdə apardığı uğurlu təbliğat işləri nəticəsində ermənilərin qəddarlığı, haqsızlığı, Azərbaycan torpaqlarını işğal etmək niyyəti dünyaya bəlli olur.

Rayon rəhbəri çıxışının sonunda belə deyib: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir". Azərbaycan xalqı və dövləti soyqırım qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır".

Digər çıxış edənlər də tarix boyu ermənilərin yaltaq, riyakar olması, dünya miqyasında görünməmiş qəddarlıqlar törətmələri barədə fikirlərini tədbir iştirakçılarına çatdırıblar.

**Elmar ƏLİYEV**
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

**DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI TƏRƏFİNDƏN 2019-CU İLİN APREL AYINDA YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ KEÇİRİLMƏSİ**
**Q R A F İ K İ**

| Sıra №-si | Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı | Qəbulların keçiriləcəyi yer | Nəzərdə tutulan keçirilmə tarixi | Qəbulda RİHBA-dan iştirak etməsi nəzərdə tutulan məsul şəxslər |
|---|---|---|---|---|
| 1. | Gurbulaq kəndi | Kənd ümumi orta məktəbinin binası | 03.04.2019-cu il saat 11:00 | M. Yolçuyev, V. Məmmədov |
| 2. | Qazaxlı kəndi | Kənd ərazisində açıq havada | 10.04.2019-cu il saat 11:00 | M. Yolçuyev, S. Əhmədov |
| 3. | Dəstəfur kəndi | Kənd tam orta məktəbinin binası | 17.04.2019-cu il saat 11:00 | M. Yolçuyev, S. Əhmədov |
| 4. | Zinzahal kəndi | Kənd tam orta məktəbinin binası | 24.04.2019-cu il saat 11:00 | M. Yolçuyev, S. Əhmədov |

QEYD: Qəbulda rayon prokuroru, o cümlədən digər hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edəcəklər.

**ELAN**

Daşkəsən rayon Mollahəsənli kənd sakini Məmmədov İbrahim Əli oğlunun adına verilmiş 01.12.2001-ci il tarixli 200717 nömrəli Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# DAŞKƏSƏNDƏ 2 FEVRAL GƏNCLƏR GÜNÜ KEÇİRİLİB



**Daşkəsən rayon Mədəniyyət Mərkəzində 2 fevral Azərbaycan Gəncləri gününün 22-ci ildönümü ilə bağlı dəyirmi masa təşkil olunub.**

Daşkəsən Rayon İcra Hakimiyyətinin, rayon Gənclər və İdman İdarəsinin və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirə ötən il müxtəlif yarış və müsabiqələrdə qalib olmuş gənclər dəvət olunublar.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov toplantını açıq elan edərək bildirib ki, müstəqillik dövrünün ilk illərində öz talelərinin ümidinə buraxılmış Azərbaycan gəncliyi bugünkü şən həyatına və xoşbəxt gələcəyinə görə Ulu Öndərimizə daim borclu və minnətdardır. Məhz Ulu Öndərin təşəbbüsü və müvafiq Fərmanı ilə 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yaradılmışdır. Bugünkü gənclər gününün də təşəbbüsçüsü Ulu Öndər olmuşdur. Belə ki, Heydər Əliyevin özünün bilavasitə iştirakı ilə bir neçə dəfə Azərbaycan gənclərinin respublika forumu keçirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycan gəncliyinin ehtiyac və qayğıları ilə həmişə maraqlanır, onlara daim köməklik göstərir. Bu gün "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı uğurla icra olunmaqdadır. 2 fevral tarixi ölkəmizdə gənclərlə yanaşı, həm də özünü gənc hiss edən, gənclərlə birgə olan, onların arzuları, qayğıları ilə yaşayan hər kəsin bayramıdır. Bu bayram münasibətilə hamınızı təbrik edir, möhtərəm Prezidentimizin gənclər qarşısında qoyduğu mühüm vəzifələrin uğurla icra edilməsində müvəffəqiyyətlər arzulayıram.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov 2018-ci il ərzində idarə tərəfindən həyata keçirilmiş tədbirlər və əldə olunmuş nailiyyətlər barədə də ətraflı məruzə edib.

Gənclər günü ilə bağlı keçirilən dəyirmi masada Daşkəsən Rayon İcra Hakimiyyətinin sektor müdiri Vüqar Məmmədov Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin təbriklərini gənclərə çatdırıb. Vurğulayıb ki, bu gün respublikamızın hər yerində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən gənclər siyasəti və idman sahəsində yerli və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilir.

Vüqar Məmmədov xüsusi ilə qeyd edib ki, 17 oktyabr 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə rayonumuza tarixi səfər etmiş, bir çox inzibati binaların, o cümlədən Daşkəsən Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak etmişlər. Təlim və İstirahət Mərkəzində gənclər üçün hər cür şərait yaradılmışdır. Azərbaycan gəncliyinə göstərilən diqqət və qayğıya görə müstəqil Azərbaycan Respublikasının gəncləri Ümummilli Liderimiz Heydər Əliyev ideyalarına sadiq olmalı və Azərbaycan Prezidenti cənab İlham Əliyevin ətrafında daha sıx birləşməlidirlər.

Məruzə ətrafında Daşkəsən rayon Mədəniyyət Mərkəzinin direktoru Mətanət Abdullayeva, Aşağı Daşkəsən G. İsmayılov adına kənd tam orta məktəbinin müəllimi Səbinə Qədirova, Daşkəsən Tarix-diyarşünaslıq muzeyinin direktoru Günel Qəribova, Daşkəsən şəhər A. Mürsəlov adına 2 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdləri Nigar Məmmədzadə, Rəqsanə Qurbanlı və digərləri çıxışlar ediblər.




Tədbirin sonunda rayonun ictimai həyatında, müxtəlif yarışlarda, mədəni-kütləvi tədbirlərdə fərqlənmiş bir qrup gəncə rayon Gənclər və İdman İdarəsi adından qiymətli hədiyyələr təqdim olunub.

**Orxan HƏSƏNOV**
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi

# DAŞKƏSƏNDƏ ƏHALİNİN PROFİLAKTİK TİBBİ MÜAYİNƏSİ DAVAM EDİR



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əhalinin 2019-cu ilin fevralın 11-dən mayın 1-dək növbəti tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığının icrası məqsədilə Daşkəsən rayonunda tibbi müayinənin başlaması üçün bütün hazırlıq tədbirləri həyata keçirilmişdir.**

Rayon sakinlərinin tibbi müayinə barədə məlumatlandırılması məqsədi ilə əhali arasında geniş təbliğat işləri aparılmış, uzaq kəndlərdə yaşayanların tibbi müayinəsi üçün 2 səyyar həkim briqadası yaradılmışdır. Bununla yanaşı, ərazidə fəaliyyət göstərən idarə və müəssisələrdə çalışan işçilərin qrafikə əsasən poliklinikaya müraciət etmələri və tibbi müayinədən keçmələri təmin olunmuşdur.

Qrafikə uyğun olaraq ilk növbədə idarə və təşkilatların kollektivləri müayinə olunub. Bu günədək 16 mindən çox rayon sakini həkim müayinəsindən keçib. Səhhətində problem olan 253 nəfər ambulator, 257 sakin stasionar müalicəyə cəlb olunub. 205 nəfərə isə ixtisaslaşmış xəstəxanalara müvafiq göndərişlər verilib.

Rayon Mərkəzi Xəstəxanasında indiyə qədər müayinə olunanların arasında mövsümü xəstəliklər və hipertoniyadan əziyyət çəkənlərin kəmiyyət etibarilə üstünlük təşkil etdiyi müəyyənləşdirilib. Aşkarlanan xəstəlikləri aradan qaldırmaq məqsədilə müalicələr təyin edilir.



Yüksək əhval-ruhiyyə şəraitində davam edən tibbi müayinə əhali tərəfindən razılıqla qarşılanır və müayinədən keçən daşkəsənlilər onlara göstərilən bu qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirirlər.

**Mirzəkərim TAĞIYEV**
Daşkəsən Rayon Mərkəzi Xəstəxanasının baş həkimi

# AZƏRBAYCANDA PLASTİK TULLANTILARIN SƏMƏRƏLİ İDARƏ OLUNMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

**Statistikaya görə, hər il dünyada 500 milyon ton plastik məhsul istehsal olunur. Plastik və polietilen məhsulların parçalanaraq yox olması üçün torpaqda 800, dənizdə isə 400 il vaxt lazım gəlir. Həmçinin yarım əsrdən sonra da plastik məhlul torpağa qarışaraq onu çirkləndirməyə davam edir. Plastik qablar hər il 120 milyon ton əlavə tullantının yaranmasına səbəb olur. Belə ki, dünyada plastik tullantıların yalnız 20 faizi təkrar emal olunur. Okeana atılan tullantıların 90 faizi də məhz plastikin payına düşür. Hər il okeanlara 150 ton plastik tullantı atılır. Okeanlarda böyük tullantı adaları əmələ gəlib. Hazırda 5 belə ada var. Onlardan ikisi Sakit, ikisi Atlantik, biri isə Hind okeanındadır. Plastik tullantılar vəhşi heyvan və quşların, balıqların ölümünə səbəb olur. Hər il milyonlarla dəniz canlısı plastik tullantılar səbəbindən tələf olur.**

İnsan orqanizminə zərərli maddələrin 80 faizi plastik tullantılardan daxil olur. Plastik məhsulların tərkibinin əsasını insan sağlamlığı üçün təhlükəli olan bisfenol-A maddəsi təşkil edir. "Bisfenol A" fenol qrupuna aid olan üzvi birləşmədir. Bu maddə suda zəif həll olunsa da çənlərdə uzun müddət qaldıqda suya diffuziya edə bilir və insan orqanizmi üçün təhlükə yaradır. Alimlər qida məhsullarının plastik qablarda saxlanılması və qızdırılmasını da tövsiyə etmirlər.

İstifadə müddəti orta hesabla 20 dəqiqə olan polietilen paketlər ümumi tullantıların təxmini 10 faizini təşkil edir. Statistikaya görə, bir ailə il ərzində təqribi 500 polietilen paket istifadə edir. Həmin paketlərin çürüməsinə 500 ildən çox vaxt lazımdır.

Hazırda bir çox inkişaf etmiş ölkələrdə plastik qablaşdırıcılardan istifadənin azaldılması istiqamətində müvafiq qanunvericilik bazası yaradılır, onların toplanması və təkrar emalı sistemi təkmilləşdirilir. Avropa ölkələrinin bir çoxunda əsas tədbir kimi plastik torbaların ödənişli olması və ya onlara ekoloji vergi tətbiqi kimi üsullardan istifadə edilir. Bununla yanaşı, dəfələrlə istifadə oluna bilən parça torbalardan, bakteriyaların və ya digər canlı orqanizmlərin parçalaya biləcəyi çantalardan istifadənin təşviqi də görülən tədbirlər sırasındadır.

Çində isə 2008-ci ilin iyunun 1-dən qalınlığı 0,025 millimetrdən az olan polietilen torbaların istehsalı, satışı və istifadəsi qadağan edilib. Ümumilikdə isə, 40 ölkədə plastik məhsulların istifadəsi məhdudlaşdırılıb. Bəzi ölkələrdə hətta turistlərin polietilen məhsullarla gəlməsinə belə icazə verilmir. Bir sıra ölkələrdə plastik qablaşdırma tullantılarının 60-70 faizi təkrar emal edilir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə Azərbaycanda istehsal olunan plastik qablaşdırma məhsullarının həcmi 2010-cu illə müqayisədə təqribən 2,5 dəfə artıb, eyni zamanda, 2009-cu illə müqayisədə 5 dəfə çox plastik qablaşdırıcı idxal edilib. Ölkədə hər il orta hesabla adambaşına 24 kiloqram plastik tullantı yaranır.

Plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi baxımından onların səmərəli idarə olunması ilə bağlı tədbirlər görülməsi zəruridir. Son illərdə Azərbaycanda da bu istiqamətdə bir çox məqsədyönlü işlər görülüb.

Ölkədə emal və xidmət müəssisələrinin qurulmasına dəstək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 1947 nömrəli Sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılıb.

Prezident cənab İlham Əliyev 2019-cu il fevralın 7-də "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb.

Tədbirlər Planı plastik qablaşdırma məhsullarının kütləvi istifadəsinin bitkilərə, heyvanlara, torpaq və su resurslarına mənfi təsirinin qiymətləndirilməsi əsasında bu sahədə çirklənmənin azaldılması ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası məqsədilə hazırlanıb. Tədbirlər Planının hazırlanması məqsədilə ölkəmizdə bu sahə üzrə mövcud vəziyyət araşdırılıb, habelə beynəlxalq təcrübəyə əsaslanaraq plastik qablaşdırma tullantılarının toplanması, daşınması, utilizasiyası və təkrar emalı zənciri boyu yüksək səmərəlilik və keyfiyyət səviyyələri, tənzimləyici mexanizmlər, istifadə olunan idarəetmə prinsipləri və digər istiqamətlər üzrə təhlillər aparılıb. Həmçinin ölkədə bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün dünyanın qabaqcıl ölkələrinin analoji təcrübələrindən istifadə edilərək strateji məqsədlər müəyyənləşdirilib.

Tədbirlər Planı 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışını əhatə edir. Burada sahə üzrə idarəetmənin səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Prezident cənab İlham Əliyev 2019-cu il fevralın 7-də "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncamı əsasında Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının 1 mart 2019-cu il tarixli 8 nömrəli sərəncamı ilə müvafiq Tədbirlər Planı təsdiq edilərək Daşkəsən rayonunda həyata keçirilir.

Ətraf mühitin mühafizəsinə töhfə vermək hər kəsin borcudur. Burada məsuliyyət təkcə hansısa bir qurumun üzərinə düşmür. Hər kəs ana təbiətin qorunmasında pay sahibi olmalıdır. Bunun üçün ekoloji tərbiyə də əhəmiyyətlidir. Azyaşlılara əllərindəki plastik qabları onlar üçün ayrılmış xüsusi konteynerlərə atılmasını başa salmaq ətraf mühitin mühafizəsinə dair atılmış kiçik, amma gələcəkdə nəticəsi böyük olacaq bir addımdır. Bundan başqa, hər birimiz plastik qabların alternativlərindən - şüşə qablardan, polietilen torbaların əvəzləyicisi olan parça və ya kağız torbalardan istifadəyə üstünlük verməliyik.

**Elmar ƏLİYEV**
RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı

# DAŞKƏSƏN QAR ÖRPƏYİNƏ BÜRÜNÜB

**Yazın gəlməsinə baxmayaraq martın 27-dən başlayaraq Daşkəsənə güclü qar yağıb. Ucqar kəndlərə nisbətən rayon mərkəzində daha az müşahidə edilən qar heç bir problem yaratmayıb.**

Yağan qarın qalınlığı Daşkəsən rayon mərkəzində 15-20 santimetr, Çıraqlı, Əmirvar, Qabaqtəpə, Astaf, Alaxançallı kimi dağ kəndlərində 40-45 santimetrə çatıb.

Rayon rəhbərliyinin tapşırığına uyğun olaraq, kəndlərarası yollarda və Daşkəsən-Gəncə avtomobil yolunda qarın nəqliyyatın hərəkətinə çətinlik yaratmaması üçün rayonun müvafiq xidmət strukturları səfərbər olunaraq mütəmadi təmizləmə işləri aparılıb. Yolların qardan təmizlənməsi və digər təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üçün müvafiq işlər görülüb. Sürüşkən olması ehtimal olunan ərazilərə qum-duz qarışığı səpilib.

Elektrik enerjisinin və içməli suyun verilişində fasilələr yaranmamışdır. Qarın yağması rayon ərazisində olan ümumtəhsil məktəblərində şagirdlərin dərslərə davamiyyətinə də təsir etməyib.

Rayonun bütün idarə və təşkilatları işlərini hava proqnozlarını nəzərə almaqla qururlar.







**Baş redaktor:**
**Elmar Əliyev**
Telefon: (055) 803-03-17
(022) 215-52-83

**Redaksiyanın ünvanı:**
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896 Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437 Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 1235
Tiraj: 500